GÜNEY AZƏRBAYCAN QURTULUŞ PARTİYASI
SOUTH AZERBAIJAN FREEDOM PARTY
www.qurtulush.se
qurtulush.partiyasi@gmail.com

**Həftəlik Yorum!**
**(3)**
**2008-12-04**

**Orjinal mətni sancaqdan alınız lütfən**

# Ekonomik kiriz ve Güney Azərbaycan

Kəsinliklə dünyada gedən bugünkü ekonomik kiriz, 1929-cu il böhranından sonra dünyanın qarşılaşdığı ən böyük titrəyişdir. Hardasa bütün dünya ölkələrinə öz mənfi etgisini qoyan bu kiriz üçün hər ölkə öz şərayitinə görə həl yolu axtarmaqdadır.

Geçdiyimiz həftələrdə bu gürəsəl soruna çıxış yolu tapmaq üçün Vaşinqtonda bir araya gələn G–20 ölkələri toplantısının çox önəmli məsajlari varidi.
Bu toplantıda dünyanın ən önəmli və güclü ekonomiləri sayılan Arjantin, Avustraliya, Breziliya, Kanada, Çin, Fransa, Almaniya, Hindistan, Əndoneziya, İtaliya, Japonya, Meksika, Rusiya, Səudi Ərabistan, Güney Afriqa, Güney Koreya, Türkiyə, İngiltərə, ABŞ ve AB-dən oluşan G-20 ölkələri krizə həll yolu tapmağa çalışdılar.
1999-da qurulan bu forum gəlişmiş ölkələr ilə gəlişməkdə olan ölkələr arasında dialoq gəlişdirməyi və dünya ekonomisində sistemli hərəkət etməyi amaclamışdır. Ayrıca IMF(Uluslararası Para Fondu) və Dünya Bankasının da üyə olduğu G–20 forumu gəlişməkdə olan ölkələrdə üz verəbiləcək finansal və ekonomik kiriz hallarını da nəzərə alaraq, gəlişmiş G–7 ölkələri də yardımçı amacıyla bu quruma geçirmişdir.

Vaşinqton toplantısının başqa bir önəmi də gələcəkdə dünyanın necə şəkillənəcəyi və bu şəkillənmədə hansı ölkələrin rol oynayacağını göstərməsi açısından çox önəmli ip ucları verməsidir.

Görünən o ki, Türkiyə və Ərabistanın bu forumda üyə olması Fars ırqçılarını çox əsəbiləşdirmişdir. Bu formuda Ərəbistan dünyanın ən böyük petrol ürəticisi olaraq yer alırkən, Türkiyə parlayan və gedərək gəlişmiş ölkələr arasında yer almaya dogru gedən bir ekonomi kimi layıq olduğu yeri almışdır. Bu, bizi bir tərəfdən sevindirsə də, 300 milyonluq Türk millətinin dünyanın cəhətini bəlli etməkdə yolunda daha da etgin və güclü bir mövqedə olması gərəyini göstərməkdədir.
Ulu Türk millətinin bir parçası olan "Azərbaycan Türk Milləti" böyük bir dövlət olmaq üçün, dünya da lider ölkələr sırasında yer almaq üçün daha dərin, daha etgin çalışmalara imza atmaldır. Unutmamaq lazimdir ki, daha adil, daha mürrəfəh və daha barışcıl bir Dünya üçün **bütöv** və **gülcü** bir Azərbaycan gərəklidir.

## Ekonomik kiriz ve Güney Azərbaycan

Finans pıyasalarından başlayıb ürətim və tükətim (tolid və məsrəf) piyasalarınadək dalğa-dalğa yayılan ekonomik kirizin bütün dünya ekonomilərində tükətimin daralmasına və sonuc olaraq ürətimin düşməsinə yol açması görünməkdədir. Təbi ki, ürətimin azalmas ilə işsizliyin çoxalması və ürətilən malların fiyat itirməsi çox normaldır. Bu durumda, Güneydə yaşayan milyonlar soydaşımızın da ekonomi gücünün şiddətlə azalması qaçırılmazdır. Sözsüz ki, Güney Azərbaycan torpaqlarının hələlik Fars işğalçılarının hakimiyəti altında olması ilə hər hansı bağımsız yorum anlamsız olacaqdır. Bu üzdən, var olan kürəsəl ekonomik kirizin İran adlanan dövlətə və Güney Azərbaycana olan etginliyini bir arada elə almalıyıq.

İran ekonomisi tək bir mala dayanan ekonomidir. Belə ki, İran sadəcə petrol və petroldan əldə edilən maların satışıyla büdcəsini təmin etməkdədir. İranın petrol dışında olan ixracatındakı ən önəmli mallar pustə ,bəzi meyvələr və Əl toxuması olan xalıdır.
Bildiyimiz kimi, İranın petrol dışı ixracatının ən çox və böyük bölümü Güney Azərbaycan tərəfindən yapılmaqdadır.
İran rejiminin iddiasına görə, bu kürəsəl kiriz İranı vurmayıb və vurmayacaqır. Bu iddialara baxmayaraq petrolun qiymətinin 50 dolların altına yenməsi, başqa yandan isə petrol alan dövlətlərin də, kirizin sonucunda mal almalarının durdurilməsını diqətə alaraq İranın daha da böyük bir ekonomik kiriz içinə yuvarlanması qaçırılmazdır.

Yuxarıda da sadaladığımız kimi Güney Azərbaycan İranın ən çox petrol dışı ixracatını yapan bölgədir. Bu ixracat, luks tükətim malı olan xalıdan tutmuş başqa luks tükətim malı olan çeşidli şukulat və buna bənzər yeməkləri, habelə yeraltı bəzək və sənaye gərəyi olan daş və mədənləri içərməkdədir. Bunların yanında meyvə suyu və bir çox araba, traxtor və çeşidli ürətim maşınların yədəkləri və qətələridir. Örnək olaraq Təbrizin böyük İDEM fabrikası Almaniyanın bir çox maşın qayırma sənayesinin yədək və gərəkən qətələrini ürətməkdədir. Sözsüz ki, Almaniyanın kiriz etgisində güc itirməsilə İDEM kimi bağlı bir fabrikanın ayaqda qalması mümkünsüz olacaqdır. Bu üzdən, araba ,traxtur və maşın ürətən bir çox ölkənin ürətiminin durdurulmasını gözə alarsaq durumun nə qədər pıs olduğunu anlayacayıq.

Güney Azərbaycan ekonomisin ana dirəyi və onurqası özəl sərməyə yatırımıdır. Azərbaycanda sərgilənmiş olan geniş özəl fabrikalar və iş yerləri özəl iş adamlarına aiddir. İran şovenist rejiminin ayrı-seçgi (ayrımçılıq) siyasətləri nəticəsində Fras bölgələri daha çox dövlət qorumasında olurlar. Bu ekonomik kiriz dönəmində Azərbaycanlı özəl sərmaya sahibləri bütün bölgələrdən daha çox dövlət himayəsinə ehtiyacları vardır. Nə yazıq ki, bu ehtiyaclara baxmayaraq İranın İslami və ırqçı fars rejimindən Güney Azərbaycanlı sərmaya sahiblərinə yardım əli uzatmasini gözləmk əbəsdir. Bunları diqqətə alaraq diyə bilərik ki, Güney Azərbaycanlı sərmaya sahibləri və iş verənlər bu ekonomik kirizi, Fars bölgələrindəki sərmaya sahiblərindən qat-qat dərin hiss edəcəklər. Yəni daha çox zərər verəcəklər.
Çünki, kirizin aşılması üçün dövlətin özəl yatırımlara daha yenik kiredi ayırması və yasal olaraq işləri qolay (rahat) edici tədbirlər alması gərəkir. Zatən Azərbaycanlı sərmaya sahiblərinə qan utduran və onlara qarşı hər cur ədalətsizliyə baş vuran İran rejimindən yardım ummaq boş və yersizdir. Kirizin olmaması hallar da belə, Güney Azərbaycanın iran dövlətçiliyi içində olan ekonomi və sosial durumu mərkəz dövlətin aydın və aşkar təxribat əngəlilə qarşı-qarşıyadır. Farsçı rejimin dün də, bugün də, yarın da, Azərbaycana olan baxışı bəllidir. Güney Azərbaycan uzun illərdir yaşam kirizi içində inləməkdədir. Bu kirizlərdən qurtulmağın təkcə yolu isə, Güney Azərbaycan dövlətinin qurulmasıdır.Umarıq ki, bu kürəsəl kiriz, Güney Azərbaycanlı sərmayə sahibləri üçün böyük bir dərs olur və milli dövlətin olmasının nə qədər önəmli olduğunu hiss etdirir.

Güney Azərbaycan Qurtuluş partiyası
Siyasi bölüm
Yazar/U.E
2008-12-04